525-ci qəzet



19 fevral / 2021

# Xalq şairinin 90 illiyinə töhfələr




Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Nəriman Həsənzadənin 90 yaşı tamam olur. Bu yubiley münasibətlə, Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Nəriman Həsənzadə" adlı Elektron məlumat bazası virtual rejimdə istifadəçilərə təqdim olunub. Elektron məlumat bazası "Rəsmi sənədlər", "Həyat və yaradıcılığı", "Görkəmli şəxslər Nəriman Həsənzadə haqqında", "Şairin söylədikləri...", "Şairin əsərləri", "Şairə ithaf olunmuş əsərlər", "Tamaşaya qoyulmuş əsərləri", "Şeirlərinə bəstələnmiş musiqilər" və "Fotoqalereya" bölmələrindən ibarətdir.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası Nəriman Həsənzadənin 90 illik yubileyi ilə əlaqədar videoçarx hazırlayıb.

İdarədən bildirilib ki, videoçarxda şairin həyat və yaradıcılığı haqqında məlumat verilir və "Nərdivan" şeiri səsləndirilir. Şairin yubileyi ilə əlaqədar videomməlumatlar kitabxananın sosial şəbəkələrdəki səhifələrində paylaşılır.

Şairin Bakıda "Seçilmiş əsərləri", Tehranda "Söyüd" və Tiflisdə "Seçilmiş əsərləri" nəşr edilib. "Nabat xalanın çörəyi" povesti Moskvada "Molodaya qvardiya" nəşriyyatında rus dilində, Tbilisidə gürcü dilində nəşr olunub.

Nəriman Həsənzadə epik-dramatik poemalar müəllifi kimi də tanınır. Xalq şairi 34 bədii-poetik toplunun, "Tariximiz, taleyimiz" adlı irihəcmli elmi, ədəbi-tənqidi məqalələr kitabının müəllifidir.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası Xalq şairi Nəriman Həsənzadənin 90 illik yubileyi münasibətlə virtual sərgi və videoçarx hazırlayıb.

Virtual sərgidə Nəriman Həsənzadənin həyat və yaradıcılığı, mükafatları haqqında əhatəli məlumat verilib. Şairin çap olunmuş kitablarının və məqalələrinin, onun haqqında çəkilmiş sənədli filmlərin, sözlərinə bəstələnmiş mahnıların siyahıları öz əksini tapıb.

Bundan əlavə, Respublika Gənclər Kitabxanası Nəriman Həsənzadəyə həsr edilmiş "Həzin ruhlu sevgi şairi Nəriman Həsənzadə" adlı videoçarx hazırlayıb. Materialda şairin "Yaşım səksəni haqladı, keçdiyim yollar hardadı?" misraları ilə başlayan şeiri də səsləndirilib.